

Müqayisəli Ədəbiyyatşünaslıq

Comparative Literature Studies

ISSN : 2663-4414 E-ISSN : 2709-0762
Nəşr edən/Publisher : AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutu

Cild/Vol, 2, Sayı/No. 2, 45-53, 2024
DOI: https://doi.org/10.59849/2663-4414.2024.2.45

Araşdırma Məqaləsi / Research Article

# İlk İndoneziya Romanı "Sitti Nurbaya" nın Mövzu, İdeya və Obraz Problematikası

## Character Issues In The First Indonesian Novel "Sitti Nurbaya"

**Leyla Ramazanova**

E-mail:
Leylamuellim@gmail.com
Tel:+994503470505
ORCİD:
AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutu

**Xülasə:**

Məqalə İndoneziya ədəbiyyatında roman janrının təşəkkülü, inkişafı məsələlərinə həsr olunmuşdur. Klassik Şərq ənənələrinə sadiq qalan İndoneziya ədəbiyyatında XX əsrə qədər poema, hekayət, müxtəlif sərgüzəştləri əks etdirən nağılvarı janrlar üstünlük təşkil edirdi. Avropa təhsili alan gənc indoneziyalı ədiblər müxtəlif mövzu və janrların müasir ədəbiyyat dövriyyəsinə daxil olması üçün uzun müddət mübarizə aparmışlar. İndoneziya ədəbi mühitində roman janrının yaranmasına səbəb olan əsas amillərdən biri kimi "Balayi Pustaka" nəşriyyatının yaranması, kitab çapının sürətlənməsi göstərilir. Dünya ədəbiyyatının şah əsərləri tərcümə olunub oxuculara təqdim edildikcə roman janrına maraq daha da artırdı. Qeyd etməliyik ki, İndoneziya ədəbiyyatında roman janrı ənənəvi janrların strukturu əsasında yaranmış, böyük qismdə milliliyi qoruyub saxlamışdır. Müasirliyə can atan müəlliflər öz kökündən, mədəniyyətindən qopmur, Şərq-Qərb mədəniyyətini sintez etməyə cəhd göstərirdilər. İlk romanlardan biri Marah Ruslinin müəllifi olduğu, müstəqil qərar verən, aktiv, şəxsi xoşbəxtliyi və azadlığı üçün can atan obrazların yaradıldığı "Sitti Nurbaya" əsəridir. Sitti Nurbaya İndoneziya ədəbiyyatında öz hüquqlarını müdafiə edən, haqsızlıqla mücadilə aparan ilk gənc qız obrazıdır. XX əsrin əvvəllərində baş verən iqtisadi-siyasi vəziyyəti, ailə-məişət qayğılarını, gənc və yaşlı nəsil arasındakı fikir ayrılıqlarını, kapitalizmin gətirdiyi problemləri incəliklərinə qədər təsvir edən roman İndoneziya ədəbiyyatının klassik nümunəsi kimi dəyərləndirilir. Qərb ədəbiyyatının ənənələri ilə milli koloriti özündə birləşdirən, müəyyən qüsurlu cəhətlərinə baxmayaraq, ilk roman kimi dəyərli və orijinal əsərdir.

**Açar sözlər:** ***İndoneziya ədəbiyyatı, Marah Rusli, roman, ənənə, müasirlik***

Məqalənin gəldiyi tarix/Received: 21.10.2024
Qəbul tarixi/Accepted: 28.11.2024
Nəşr tarixi/ Available Online: 29.12.2024

**Abstract:** The article is dedicated to the formation and development issues of the novel genre in Indonesian literature. The establishment of the "Balai Pustaka" publishing house and the rapid expansion of book printing are highlighted as key factors contributing to the creation of the novel genre in Indonesian literature. The novel genre in Indonesian literature has been formed based on the structure of traditional genres, largely preserving national identity. One of the first novels, "Sitti Nurbaya," authored by Marah Rusli, stands out as an exemplary work that depicts the independent, active, and freedom-seeking characters striving for personal happiness. The novel, which intricately portrays the economic and political situation of the early 20th century, family concerns, intergenerational differences, and problems brought about by capitalism, is considered a classic example of Indonesian literature. Despite certain flawed aspects, it is valued as a precious and original work, combining Western literary traditions with national color.

**Keywords:** ***Indonesian literature, Marah Rusli, novel, tradition, modernity***

**Cite as(APA 7):** Ramazanova, L. (2024). Theme, Idea, and Character Issues In The First Indonesian Novel "Sitti Nurbaya". *Müqayisəli Ədəbiyyatşünaslıq*, *2*(2), 45-53. https://doi.org/https://doi.org/10.59849/2663-4414.2024.2.45

**Giriş / *İntroduction***

İndoneziya ədəbiyyatında roman janrının yaranması birbaşa siyasi, iqtisadi məsələlərlə bağlı idi. XVII əsrdə İndoneziyanı işğal edən hollandlar XVIII əsrin sonlarından ticarət məqsədi ilə kütləvi şəkildə adalara axın edir, bəziləri elə burda qalıb yaşamağa başlayırdı. Beləliklə, XIX əsrin əvvələrində İndoneziyada Avropa tipli məktəblər yaranır, Avropa mədəniyyəti, ədəbiyyatı, hətta missionerlər xiristianlıq dinini təbliğ edirdilər. Yeni tipli bu məktəblərdə hollandlarla yanaşı, zəngin yerli əhali də övladlarını oxutmağa başladı.

XX əsrin əvvəllərində artıq yaşlı və gənc nəsil indoneziyalılar arasında mübarizə başlanmışdı. "Muda" adlanan gənc reformatistlər özlərini inkişafın simvolu hesab edir, adət-ənənəyə, dini görüşlərinə sadiq olan "tua" adlandırılan yaşlı nəsilə qarşı kəskin mövqedə dayanır, tənqid etməkdən çəkinmir, yeni ədəbi janrlarla, yeni mövzularla çıxış edirdilər.

Avropalıların təsiri ilə yanaşı, İndoneziya xalqının daxili mədəni inkişafını da xüsusilə qeyd etməliyik. XIX əsrdə holland dilində qəzətlərlə bərabər, bir çox adada da yerli dildə qəzetlər nəşr olunmağa başladı (İndoneziya minlərlə adadan təşkil olunub, dörd böyük adanın dili və yazı qaydaları həmin dövrdə daha çox istifadə olunurdu, vahid dil və yazı sistemi formalaşmamışdı). İlk və qəzet jurnallarda daha çox macəra xarakterli, uydurma süjet xətli əsərlər nəşr olunurdu. Silsilə şəklində dərc olunduğu üçün daha çox oxucu cəlb edə bilirdi. Bu əsərlərin yaradıcıları ənənədən uzaqlaşan, yeniliyə cığır açan ilk təşəbbüskarlar idi. Digər tərəfdən, onlar xalqın içindən çıxan jurnalist idilər, yerli əhalinin problemlərini, dərdlərini məktub şəklindən istifadə edərək ədəbiyyata gətirirdilər. Avropa və Çin ədəbiyyatından tərcümələr edən bu novatorlar Şərqlə Qərbin maraqlı sintezini yarada bilmişlər" (Wahab, 1991, p. 57).

İndoneziya ədəbiyyatında roman janrının yaranmasına səbəb olan əsas faktorlardan biri kimi kitab nəşrinin başlanması göstərilir. İlk kitabların çap olunması da avropalıların adı ilə bağlıdır. Avropalı missionerlər xristianlığı təbliğ etmək üçün yeni elmi və bədii kitablar çap etdirir, yerli əhalinin diqqətini çəkmək istəyirdilər. Getdikcə paytaxt Cakarta ilə yanaşı, əyalətlərdə də yeni nəşriyyatlar açılmağa başladı. Beləliklə, nəşr olunan kitabların və eyni zamanda oxucuların sayı artırdı.

Əksər ədəbiyyatşünasların fikrincə, İndoneziyada roman janrının tarixi "Balayi Pustaka" (Ədəbiyyat bürosu") nəşriyyatının yaranması ilə üst-üstə düşür. 1917-ci ildə ədəbiyyata nəzarət məqsədilə hollandlar tərəfindən yaradılan bu nəşriyyatda ilk illərdə dünya ədəbiyyatının məşhur əsərləri tərcümə olunurdu. Ç.Dikkensin "Oliver Tvist", A.Dümanın "Üç muşketyor", M.Tvenin "Tom Soyerin macəraları", F.Kuperin "Sonuncu Magikan" əsərləri bu qəbildən idi. Tərcümə olunmuş əsərlər indoneziyalı yazıçıların dünyagörüşünə böyük təsir edir, yeni əsərlərin yaranmasına səbəb olurdu. "Balayi Pustaka" nəşriyyatı "yüksək" malay dili adlandırdığı vahid yazı forması tətbiq etməklə yanaşı, latın qrafikası ilə yazmaq şərtini də irəli sürürdü. "Vətəndaş mövqeyini, mənəvi dəyərləri" özündə ehtiva edən əsərləri çap etməklə nəşriyyat senzura yaradır, yazıçılar qarşısında məhdudiyyətlər yaradırdı.

İndoneziyada roman janrı ənənəvi hekayət, povest janrlarının strukturu əsasında yaranmış, böyük qismdə milliliyi qoruyub saxlamışdır. Tədqiqatçı C.Vatson İndoneziya ədəbiyyatında XX əsrin əvvəllərində yazılan əsərləri mövzuca dörd qrupa bölür:

1) "Avropa ədəbiyyatından iqtibaslar, həmçinin Çin tarixindən götürülmüş, sərgüzəşt xarakteri daşıyan əsərlər. Bu əsərlər daha çox Çin-metislərin arasında yayılmışdır. Qədim və orta əsrlərdən İndoneziyaya köçmələrinə baxmayaraq, çinlilər öz tarixlərini, mədəniyyətlərini, köklərini unutmur, ənənələrini yaşatmağa çalışırdılar.

2) İkinci qrup mövzuya avropalıların yerli əhalidən evləndikləri “njai” adlanan qadınların həyatı daxil idi. Müəlliflər iddia edirdilər ki, mövzular real, tarixi faktlara əsaslanır. Həcmcə 15-100 səhifə arasında dəyişən bu əsərlərdə hadisələr, adətən, Cakartada baş verir. Ədəbiyyatşünaslar bu əsərləri müasir İndoneziya ədəbiyyatına keçid mərhələsi kimi qəbul edirlər.

3) Digər bölgünün əsas mövzusu yerli inanclar: cadugərlik, falçılıq və qara maqiya idi. P.Daumun “Maqiyanın tərifləri” kitabı bu mövzuya həsr olunmuş ən maraqlı kitablardan biridir.

4) Dördüncü bölgü saf məhəbbətin tərənnümünə, sevən gənclərin məcburi ayrılığından, arzuolunmayan nikah, intihar kimi mövzuların təsvirinə həsr olunub” (Vatson, 1977, 430-431).

“Aşağı” malay dilində yazılmış bu əsərlərin bir çoxunda bədiilik, təsvir, ifadə vasitələri yox səviyyəsindədir. Obrazların daxili aləminə səthi yanaşılan bu əsərlərdə təsvirçilik ön plandadır.

**Marah Rusli və “Sitti Nurbaya” romanı**. Dünya ədəbiyyatı ilə tanışlıq, dəyişən ictimai-siyasi hadisələr yeni ədəbi qəhrəman, mövzu, janrların yaranmasına şərait yaratdı. Baş qəhrəmanlar müstəqil qərar verən, aktiv, şəxsi xoşbəxtliyi və azadlığı üçün can atan obraz kimi yaradılmağa başladı. Yuxarıda qeyd olunan yenilikləri özündə ehtiva edən ilk romanlardan biri Marah Ruslinin müəllifi olduğu “Sitti Nurbaya” əsəridir.

Marah Rusli 1887-ci il 7 avqustda Qərbi Sumarta adasında yerləşən Padanq şəhərində aristokrat ailədə doğulmuşdur. Onun atası Sultan Əbu Bəkir zadəgan əsilli idi, şəhərin idarəçilərindən biri idi. Yazıçı yaxşı təhsil almış, müxtəlif özəl məktəblərdə oxumuşdur. Ali təhsilini Hollandiyada almaq istəsə də, atası icazə verməmiş, İndoneziyada baytarlıq üzrə təhsil almışdır. Universitetdə oxuyarkən kasıb bir qızla ailə həyatı qurur, lakin ailəsi bu evliliyi qəbul etmir, universiteti bitirdikdən sonra valideynləri onu doğma şəhərinə qayıtmağa və məsləhət bildikləri qızla evlənməyə məcbur edirlər. Öz iradəsinin əksinə yaşamağa məcbur edilən yazıçı əsərlərində də bu avtobioqrafik ünsürlərə yer vermiş, haqqı tapdalanların müdafiəçisi kimi çıxış etmişdir. 1922-ci ildə nəşr olunan “Sitti-Nurbaya” əsəri çağdaş düşüncələrə nəfəs verən, mürtəcə fikirlərə qarşı çıxan ilk əsərlərdən biri kimi İndoneziya ədəbiyyatında yeni cığır açmışdır. Romanda zamanla ayaqlaşmayan ailə adət-ənənələri ilə mübarizə, çoxarvadlılıq, zorakı evlilik problemləri işıqlandırılmışdır. Tədqiqatçı A.Teu yazıçının bu mövqeyini təbii hesab edərək yazırdı ki, “Qərb tipli məktəblərdə təhsil alan, Avropa yazıçılarının əsərlərini oxuyan, müasir dünya ilə tanış olan bu gənclərin orta əsrlərdən qalma ənənələrə, xüsusilə, zorakı ailə qurmaq məsələsinə etirazlarında təəccüblü bir şey yoxdur” (Teeuw, 1967, p. 13).

Gənc yazıçılar şəxsi azadlıqlarını qorumaqla yanaşı, yüzlərlə həmyaşıdlarının hüquqlarını da müdafiə etmək istəyirdilər. Marah Ruslinin romanı nəşr olunduqdan sonra atası ona qınaq dolu məktub yazır, oğlunun belə düşüncələrə sahib olduğu üçün dərin sarsıntı keçirdiyini bildirir. Bu məktubdan sonra yazıçı bir daha öz doğma Padanq şəhərinə qayıtmır. “Sitti Nurbaya” romanının böyük uğur qazanmasına baxmayaraq, ədib yazıçılıq fəaliyyətini ikinci plana atmış, daha çox pedaqoji fəaliyyətlə məşğul olmuşdur.

XX əsrin əvvəllərində baş verən iqtisadi-siyasi vəziyyəti, ailə-məişət qayğılarını, gənc və yaşlı nəsil arasındakı fikir ayrılıqlarını, kapitalizmin gətirdiyi problemləri incəliklərinə qədər təsvir edən roman müasir İndoneziya ədəbiyyatının klassik nümunəsi kimi dəyərləndirilir. “Bədbəxt sevginin tarixi” kimi qeyd olunsa da, bu roman faciəvi məhəbbətlə yanaşı, daha çox mədəniyyətlərin toqquşması məsələsi ilə ədəbiyyatşünasların diqqətini çəkmişdir. Yuxarıda

qeyd etdiyimiz kimi, XX əsrin əvvəllərində Kaum Muda (modernistlər) və Kaum Tua (ənənə tərəfdarları) arasında ciddi mübarizə gedirdi, "Sitti Nurbaya" romanının da demək olar ki, konfiliktini bu mübarizə təşkil edir. Marah Rusli fikirlərini əsərin baş qəhrəman Samsulbahri vasitəsilə oxuculara çatdırır. On yeddi yaşlı bu gənc yaşadığı dövr üçün tipik obraz idi, belə ki, yenilik təbliğ edərkən bəzən adətlərə boyun əyən Samsulbahri özü-özüylə ziddiyyət təşkil edirdi. Samsulbahri obrazı yalnız həyat həqiqətləri qarşısında yox, baş qəhrəmanı ideallaşdıran ənənəvi ədəbiyyatla, baş qəhrəmanın qüsurlarını gizlətməyən modernist ədəbiyyatın xüsusiyyətini də əks etdirdiyi üçün təzad yaradırdı. Samsulbahri obrazı ilə ədib baş qəhrəmanı fövqəltəbii qüvvələrə sahib, qüsursuz canlandıran klassik Malay ədəbiyyatının hökmranlığına son qoymuşdur. Mənfi və müsbət xüsusiyyətləri ilə birgə xalqın içərisindən çıxan sadə baş qəhrəman yaratmaqla müəllif müasir İndoneziya ədəbiyyatını zənginləşdirir, Avropa ədəbi mühitinə yaxın yeni tip yaradırdı.

Mövzusunu "Kəpənək sevərlər" adlı Çin əfsanəsindən götürən müəllif XX əsr İndoneziya həyatının gerçəklərinin təsviri ilə əfsanənin süjet xəttini bir qədər dəyişmiş, yeni və orijinal əsər yarada bilmişdir. "Yerli holland məktəbinin qarşısından 18 yaşlı bir gənc gəlirdi. O, sona qədər düymələnmiş ağ köynək, qısa qara şalvar, ayağına ipək corablar və uzun qara çəkmə geyinmişdi. Başında isə, adətən, hollandların taxdığı açıq rəngli şlyapa var idi...

Kənardan bu gənci görən hər kəs düşünərdi ki, hollandiyalı gənc məktəbdən evə qayıdır. Əslində bir az yaxınlaşdıqda o dəqiqə anlayırsan ki, bu avropalı deyil, rəngi tünd, gözləri, saçları mürəkkəb kimi qara olan yerli gəncdir"(Русли, 1961, pp. 15-16).

Baş qəhrəmanını bu şəkildə oxuculara tanıtmaqla əslində, müəllif öz tərəddüdlərini ifadə etməyə çalışırdı. Milli azadlığı hollandlar tərəfindən alınmış xalq onlar kimi geyinməklə, Avropa təhsili almaqla, adət-ənənələrdən uzaqlaşmaqla doğru edirdimi? Qərb meyilli gəncləri yaşlı nəsil qəbul edəcəkmi? Müəllif sanki özü də bu suallar qarşısında aciz idi, əsər boyu oxucu ilə birgə bu suallara cavab axtarır.

Samsulbahri varlı zadəgan ailəsində doğulmuş, holland məktəbində təhsil almış və ali təhsilini davam etdirmək – həkim olmaq üçün Cakartaya getməlidir. Gözəl nitqi, ədəb-ərkanı ilə, sədaqəti, dostcanlığı ilə hər kəs tərəfindən sevilən bu gənc məktəb illərində varlı tacir qızı Sitti Nurbaya ilə dostluq edirdi. Bu dostluq tədricən məhəbbətə çevrilir, Çin əfsanəsindəki kimi qəhrəmanlar öz sevgilərini ancaq Samsulbahrinin səfərindən bir gün əvvəl etiraf edirlər. Gənclər öz aralarında əhd-peyman bağlayırlar ki, Samsulbahri təhsilini bitirib qayıtdıqdan sonra onlar evlənsinlər. Müəllif bununla təhsilin həyatdakı rolunu yüksək qiymətləndirir, təhsilli insanın doğru qərarlar verə biləcəyinə, qaranlıqları işığa çevirə biləcəyinə inanır. Avropa təhsili almış M.Rusli baş qəhrəman vasitəsilə evlilik məsələləri ilə bağlı fikirlərini də dilə gətirir, ailə həyatı qurmaq istədiyi qızı özü seçən Samsulbahri romanda belə bir fikir səsləndirir: "...Bunu ancaq heyvanlar edər, insanlar yox. Necə ki, qadının iki, üç əri ola bilməz, elə də gərək kişinin bir arvadı olsun"(Русли, 1961, p. 31).

Ədib qadın baş qəhrəmanını oxuculara tanıtmaqdan əvvəl onun ailəsi haqqında məlumat verir, məlum olur ki, bir çox dükanları, gəmiləri, kakos plantasiyaları olan Süleyman qonşusu Sultan Mahmud qədər köklü ailədən olmasa da, qızını holland məktəbində oxutduracaq qədər zəngindir. M.Rusli ikinci baş qəhrəmanını da Avropa qiyafəli, kübar, tərbiyəli, xarici gözəlliyi ilə yanaşı, daxili gözəl qız kimi canlandırıb. Maraqlıdır ki, milli köklərdən qopa bilməyən müəllif baş qəhrəmanları nə qədər Avropa meyilli olsalar da, öz duyğularını bir-birinə qədim malay şeir şəkli olan pantunlar vasitəsilə bildirirlər. Pantunlar Azərbaycan ədəbiyyatındakı bayatı janrını xatırladır. Bayatı kimi pantunlar da bir bənddən

dörd misradan ibarət olur, adətən, əsas fikir son iki misrada bildirilir. Pantunlar bayatılardan fərqli olaraq, 12 hecadan ibarət olur, qafiyə quruluşu daha çox abab şəklində olur.

Malay folklorunda bu janr təmiz, saf duyğuların ifadəsi üçün istifadə olunur, məhəbbət məzmunlu pantunlar evliliyə işarə məqsədi daşıyırdı. Müəllif bununla da Avropa ədəbiyyatındakı naturalizmdən yayınmaq üçün gənclərin təmiz sevgisini bu yolla bildirməyi məqsədəuyğun bilir. Samsulbahri və Sitti Nurbaya gəncliyi, məsumluğu, gələcəyə ümidi təmsil etdikləri halda, Datuk Merinqih xəyanəti, zülməti, ümidsizliyi təmsil edirdi. Bu obrazı müəllif oxuculara təqdim edərkən yazır: "Onun həyatdakı tək xoşbəxtliyi, ləzzət aldığı şey−pul, pul, pul idi. Pullar onun üçün valideynlərini, övladlarını, bacı-qardaşını, tanışlarını, dostlarını, sevdiklərini əvəz etmişdir. Pul onun sevgisi idi, pul onun allahı idi. Pullar onun üçün xoşbəxtliyi yaradan vasitə deyildi, məhz xoşbəxtliyin özü idi" (Русли, 1961: 98). Datuk Merinqih günü-gündən sərvəti artan Sitti Nurbayanın atası−Süleymana qarşı nifrət bəsləyir, onu aradan qaldırmağın yollarını axtarırdı. Onun əmri ilə bir gecədə Süleymanın bütün gəmiləri, sahələri yandırılır, Süleyman və ailəsi çıxılmaz vəziyyəti düşür, müflisləşir. Süleyman ticarətini yenidən bərpa etmək üçün Datuk Merinqihdən borc pul istəyir, o isə üç aya qaytarmaq şərti ilə borc verəcəyini bildirir və beləliklə, süjet xəttində düyünlənmələr başlayır. Orta yaşlı, zülmkar Merinqeh obrazı vasitəsilə müəllif sanki gənc Samsulbahrini daha işıqlı, daha məsum yaratmağa çalışmışdır. Əsər boyu ənənə və müasirliyin sintezini müşahidə edirik. Cakartaya getməyə hazırlaşan Samsulbahrini dostları yola salmaq üçün bir araya gəlirlər, avropalı gənclər kimi musiqi sədaları altında şərab içir, söhbət edirlər. Bu epizodlar İndoneziya ədəbiyyatı üçün tamamilə yeni səhnələr idi. Bununla yanaşı, yuxu motivi bütün Şərq ədəbiyyatında geniş yayılmış ədəbi priyomdur. Marah Rusli gənclərin başına gələcək bəlanın əvvəlcədən Samsulbahriyə əyan olması hissəsini yaratmaqla klassik malay ədəbiyyatının təsirindən qopa bilmədiyini açıq şəkildə bəyan etmiş olur. Gördüyü yuxu gənci çox narahat edir, onun təsirindən qurtula bilmir. O getdiyi gün bu qayğılarını sevgilisi ilə bölüşərək deyir: "Keçən cümə mən yuxuda görürəm ki, mən böyük bir dağın zirvəsinə qalxıram, sonra oradan baxanda görürəm ki, bura əslində səs-küylü Cakartadır. Şəhərin mərkəzində hündür bir minarə görürəm. Bu zaman mənə bir qoca yaxınlaşıb dedi ki, ey Samsu əgər xəyallarının gerçəkləşməyini istəyirsənsə, bu minarəyə qalx. Mən elə minarəyə qalxmaq istəyirdim ki, gördüm ki, sən təkbaşına mənim arxamca gəlirsən. Mən qərara gəldim ki, səni gözləyim bərabər qalxaq. Bu vaxt Datuk Merinqih gəldi və səni qucaqlayıb aparmaq istəyəndə aramızda dava başlandı, o məndən güclü çıxdı, dağın zirvəsindən məni yeri itələdi, onun istəklərini qəbul etmədiyin üçün səni də yuxarıdan atdı, ikimizdə düşdüyümüz böyük çuxurdan çıxa bilmədik" (Русли, 1961, p. 65).

İstər orta əsrlər malay ədəbiyyatında, istərsə də XX əsrin əvvəlində yazılmış əsərlərdə yuxu görən qəhrəmanlar Allahdan onu xeyrə yozmağı istəyirlər. Samsulbahri sevgilisi üçün narahat olduğunu, tədirgin şəkildə getdiyini pantun vasitəsilə bildirir:

Düyünü bir sarayda saxlayar,
Kakosları başqa birində
Qoy bizi ölümlə təhdid etsinlər,
Biz isə birlikdə ölək (Русли, 1961, p. 86).

Samsulbahri ali təhsilini davam etdirmək üçün Padanqı tərk etdikdən sonra, demək olar ki, onun yuxusu çin olmağa başlayır. Datuk Merinqihdən aldığı 10 min rupini qaytara bilməyən Süleyman ağlagəlməz şərtlə qarşı-qarşıya qalır, ya qızını mənə verməli, ya da həbsdə yatmalısan. Sitti Nurbaya Samsulbahriyə bu barədə məktub yazır, atasını həbsdən qurtarmaq

üçün, ailəsini çətin vəziyyətdən xilas etmək üçün Merinqihin arvadı olmağa razılaşdığını bildirir. M.Rusli digər həmkarlarından fərqli olaraq, qadın baş qəhrəmanını hüquqsuz, mal kimi alınıb-satılan obraz kimi təsvir etmir, yüksək təhsil almış qəhrəmanı məhz özü atasını çıxılmaz vəziyyətdən qurtarmaq üçün bu hərəkəti azad iradəsi ilə yerinə yetirir.

Məktubu alan gənc sarsılır, gələcəyə dair xəyallarının puç olduğunu düşünür, ağır günlər keçirir. Müəllif bu zaman baş qəhrəmanında yeni xüsusiyyət yaradır. O, qisas almaq üçün and içir. Allahdan onun bu istəyini yerinə yetirməyənə qədər canını almaması üçün dua edir. Həlim qəlbli Samsulbahri qisas almağa and içsə də, əvvəlcə o bu vəziyyətdən necə çıxışyolu tapa biləcəyi haqqında düşünür və gizli doğma şəhərinə–Padanqa qayıdır. Bağda gizli şəkildə görüşəndə Samsulbahri Nurbayaya onu sevdiyini, bu çətin vəziyyətdən bərabər qurtulacaqlarını deyir. Bu səhnə də İndoneziya ədəbi mühiti üçün yenilik idi, başqası ilə evli olmasına baxmayaraq, öz sevgilisindən imtina etmir, əksinə onunla birgə qaçış yolları axtarır. Lakin gənclərin arzuları həyata keçmir, onları görən Merinqih qarğışlar yağdırır, qonşuları çağırır. Bu hadisəni eşidən Süleyman pilləkənlərdən yıxılıb ölür, Samsulbahrinin atası bu xəbəri eşidəndə oğlunu evdən qovur, onu ailənin adına ləkə gətirməkdə ittiham edir. Çarəsiz qalan Samsulbahri yenidən Cakartaya qayıdıb təhsilini bitirməyi, özünə iş tapmaq qərarına gəlir. Beləliklə, yenidən sevgililər bir-birindən uzaq düşür. Həm atasının ölümü, həm Samsulbahrinin getməsi Nurbayanı sarsıtsa da, o daha atası ilə onu təhdid edən zalım insanın yanında qalmaqdan imtina edir, Cakartaya, sevdiyi insanın ardınca gedir. Ədib yenə Nurbayanı güclü, öz həyatı haqqında sərbəst qərarlar qəbul edən obraz kimi canlandırır. Datuk Merinqih ona qarşı olunan "xəyanəti" bağışlamır, Sitti Nurbayanı oğurluqda–evdəki qızılları götürməkdə ittiham edir, Nurbaya təmiz adını qorumaq üçün Cakartadan qayıdır, məhkəmə zamanı günahsız olduğunu sübut edir. Ürəyi soyumayan Merinqih Nurbayanı öldürmək qərarına gəlir, zəhərli şirniyyat vasitəsilə onu öldürtdürür. Anası və sevdiyi qızı eyni gündə torpağa basdıran Samsulbahri etdiyi andı unudur, atasına məktub yazır. Məktub sanki Marah Ruslinin monoloqudur, cəmiyyətə söyləmək istədiklərini baş qəhrəmanın dili ilə çatdırır. Valideynləri tərəfdən hüquqları tapdalanan müəllif üsyan edir. İndoneziyalı gənclər valideynin üzünə ağ ola bilməz, onlara qarşı etiraz edə bilməzdi, amma Samsulbahri məktub boyu atasına suallar verir, baş verən hadisələri mühakimə edir: "Atacan, siz mənə deyə bilərsinizmi, dünya nə üçün belə qurulub? Niyə sizin oğlunuz ədaləti tanımadı?"(Русли, 1961, p. 233). Məktubda Samsulbahri, həmçinin qadın hüquqsuzluğuna qarşı çıxır, cəmiyyətin Nurbayanı müdafiə etmədiyi üçün qınayır: "Qadın cəmiyyətin gözündə insan deyil, ərinin bütün istəklərinə ram olan dilsiz kukladır. Onun şəxsi istəkləri, düşüncələri ola bilməz. Ona işləməyi əmr edərlər, işləyər, ölməyi əmr edərlər ölər. Axı qadının ikinci adı quldur, qul-axı öz ağasına qeydsiz-şərtsiz ona tabe olmalıdır"(Русли, 1961, p. 235).

Atasına və dostlarına vida məktubu yazaraq özünü öldürmək istəyən Samsulbahrinin bu hərəkəti oxucu və ədəbiyyatşünaslar tərəfindən müxtəlif cür qiymətləndirilir. Qisas, intiqam–bu motivlər senzuradan keçmədiyi üçün yazıçının obrazın xarakterik xüsusiyyətlərində dəyişiklik etməyə məcbur qaldığı ehtimal edilir. Qisas ancaq tale onları təsadüfən qarşılaşdırarkən baş verir. Baş qəhrəmanın intihar nəticəsində ölməməsini isə müəllifin dini görüşləri ilə bağlamaq doğru olar. İslam dininə etiqad edən Marah Ruslinin rəğbət bəslədiyi qəhrəmanına islama görə ən böyük günahlardan biri olan özünəqəsdə imkan vermir. Maraqlıdır ki, klassik malay ədəbiyyatında–"Andakane Penuratenin hekayəti" əsərində baş qəhrəmanın intiharı baş tutur, ümumiyyətlə, islamdan əvvəl yazılmış nümunələrdə intihar motivi ilə qarşılaşmaq mümkündür.

İki hissədən ibarət romanın birinci hissəsi Samsulbahrinin intihara cəhdi ilə tamamlanır. Oxucu bu cəhdin baş tutub tutmamasını dəqiqləşdirə bilmir. Üz vermiş faciədən on il keçmişdir, leytenant Mas adı ilə ədib qəhrəmanına ikinci həyat verir. Qeyd etməliyik ki, ikinci hissə birinci hissə ilə müqayisədə daha sönük alınmışdır. Yazıçı hər kəs tərəfindən öldüyü düşünülən baş qəhrəmanına yaraşan ölümü təsvir etmək üçün onu holland qoşunlarında hərbi xidmətə qoşulmuş şəkildə təsvir edir, qisas alması üçün şərait yaradır. Əsərdə Datik Mirinqeh var-dövlətini daha da artırmaq məqsədi ilə olsa da, holland işğalçılarına qarşı mübarizəyə qalxan dəstəyə başçılıq edir. İki düşmənin qarşılaşması on il sonra siyasi hadisələr fonunda baş tutur.

Öz xalqına qarşı üsyanı yatırdan holland qoşunlarının tərkibində canlandırılan Samsulbahri obrazı haqlı olaraq bir çox ədəbiyyatşünaslar tərəfindən tənqid olunmuşdur. Əsər haqqında tənqidi məqalələr ilə ilk çıxış edənlərdən biri avstriyalı alim A.Consdur. Onun fikrincə, əsərin əvvəlində humanist düşüncələrlə yaşayan baş qəhrəmanın sonda öz həmvətənlərinə qarşı vuruşması yolverilməzdir. Həmçinin süjet xəttində ziddiyyət yaranır. Yadellilərə qarşı üsyanın başçısı kimi təsvir edilən Datuk Merinqih müsbət qəhrəman kimi də dəyərləndirilə bilər. A.Consun fikrincə, əsərdəki bu uyğunsuzluq birbaşa müəllifin dünyagörüşündəki məhdudiyyətlərdən qaynaqlanır. Alim hesab edir ki, “Marah Ruslinin yeniliyi, dəyişikliyi holland kolonlarının modernizmində axtarması cəhdi yanlışdır, reformu alternativ yolda–islamda etmək lazım idi. Əgər o Qərbin təsirindən çıxıb, islami görüşlərində dəyişikliklər etsəydi, romanı bu cür yazmaz, daha fərqli şəkildə tamamlayardı. O, milli-mənəvi dəyərlərə sadiq, müasir düşüncəli baş qəhrəman yaratmaqla ədəbiyyatda post-kolonist düşüncənin ilk memarlarını yarada bilərdi, lakin yazıçının holland məktəbində təhsil alması, dini görüşündəki kəskinlik buna mane olmuşdur”(Johns, 1963, p. 241). A.Consun fikirləri ilə razılaşmaqla yanaşı, həminki dövrün siyasi vəziyyətini də diqqətdən kənarda saxlamaq olmaz. Kitabın “Balayi Pustaka” mətbəəsində çap olunduğunu nəzərə alsaq, müəllif senzuradan keçə bilmək üçün bu addımı atdığını da düşünmək olar. Azərbaycan ədəbiyyatının sovet dövründə bir çox əsərlərdə tarixi faktların dəyişdirildiyini, bəzi məsələlərə qərəzli yanaşıldığını, ata ilə oğul, iki yaxın dostun siyasi görüşlərinə görə düşmənə çevrildiyini aydın görmək mümkündür. Bu da ədəbiyyatın ictimai həyatda baş verən hadisələri birbaşa özündə əks etdirdiyini, dövrün siyasi tələbi ilə təhrifə məruz qaldığını göstərir. Həm Azərbaycanın, həm də İndoneziyanın müəyyən müddət işğal altında yaşaması ədəbiyyatda da mənfi və müsbət mənada öz əksini tapmışdır.

Nəhayət, iki əzəli düşmən qarşı-qarşıya gəlir. Leytenant Mas (adını dəyişmiş Samsulbahri) düşmənini görəndə üzündə təbəssüm yaranır, uzun illər gözlədiyi qisasın vaxtı çatmışdı. O gözlərində nifrət, üzündə təbəssümlə deyir: “Əclaf, axır ki, həyatlarını məhv etdiyin hər kəsin qisasını səndən alacağam. Sən düşündün ki, var-dövlətin varsa, başqalarına iftira ata bilərsən, onları alçalda bilərsən, öz istək və ehtiraslarını reallaşdırmaq üçün digərlərinin həyatını məhv edə bilərsən. Lənətə gəlmiş Datuk, indi yaxşı dinlə! Sənin mal-mülkün nə dostlarına, tanışlarına, nə başqalarına, hətta özünə də xeyir gətirmədi. Ancaq çoxlarına kədər, gözyaşı gətirdi”(Русли, 1961, p. 270). Müəllifin ideyalarını dilə gətirən baş qəhrəman güllə ilə düşmənini öldürsə də, özü də ağır qılınc yarası alır. Marah Rusli müasirliklə ənənənin qovuşmasını əsərin sonunda da canlandırır, bir çox cəhətləri ilə yenilikçi olan Samsulbahri klassik ədəbiyyatın baş qəhrəmanları kimi savaş meydanında vəfat edir.

**Nəticə.** Şübhəsiz, Samsulbahri və Sitti Nurbaya obrazları İndoneziya ədəbiyyatı üçün yeni janrın müasir qəhrəmanları idi. Ədibin proobrazı olan Samsulbahrinin simasında müəllif cəmiyyətdə gedən ictimai-siyasi proseslərə, təzadlara, müxtəlif problemlərə, proseslərə öz

münasibətini bildirir, tənqid etməkdən çəkinmir. M.Rusli qəhrəmanlarının duyğularını, kədərlərini canlı şəkildə təsvir edir, oxucu qəhrəmanlarla birlikdə sevinir, təəssüflənir, özünü bədii əsərin bir parçası kimi hiss edir. İndividual keyfiyyətləri ilə fərqlənən baş qəhrəmanlar seçim qarşısında qaldıqları zaman adət-ənənədən qopa bilmir, milli koloritə uyğun hərəkət edirlər. İndoneziya ədəbiyyatına Qərb üslubunu gətirməyə çalışan ilk təşəbbüskarlar yeni mövzu, janrlar istifadə etsələr də, milli kimliklərindən uzaqlaşmır, bəzi məqamlarda klassik ədəbiyyatın xüsusiyyətlərini yaşadırlar. Marah Ruslinin müəllifi olduğu İndoneziya ədəbiyyatında özünəməxsus yer tutan "Sitti-Nurbaya" romanı ənənədən müasirliyə keçid rolunu oynayan orijinal əsərdir.

## Ədəbiyyat

Johns, A. (1963). *Genesis of a Modern Literature in Ruth T McVey*. Yale University Press in association with Free Press.

URL:http://www.kitlv-journals.nl/index/php/btlv/article/viewFile/1977/2738

Teeuw, A. (1967). *Modern Indonesian Literature, University of Leiden the Hague: Martinus Nijhoff*

Wahab, A. A. (1991). *The Emergence of the Novel in Modern Indonesian and Malaysian Literature*. Dewan Bahasa dan Pustaka.

Русли, М. (1961). *Ситти Нурбая. История несчастной любви*. Государственное издателъство.